ARTIM
LAYİHƏ MƏKANI *PROJECT SPACE*

KİŞİLƏR AĞLAMAZ

BOYS DON'T CRY

QRUP SƏRGİSİ
GROUP EXHIBITION

YARAT.az /

İştirakçılar / Participants:

Aqil Abdullayev
(Azərbaycan / Azerbaijan)

Anka Gujabidze
(Gürcüstan / Georgia)

Taus Maxaçeva
(Rusiya / Russia)

Çinarə Məcidova
(Azərbaycan / Azerbaijan)

Leyli Salayeva
(Azərbaycan / Azerbaijan)

Gülshən Novruzova
(Azərbaycan / Azerbaijan)

Jaro Minne
(Belçika / Belgium)

Leyla Novruzova
(Azərbaycan / Azerbaijan)

Ayxan Xəlilov
(Azərbaycan / Azerbaijan)

Qadın və ya kişi, yaxud eyni zamanda həm qadın, həm də kişi olmaq nə deməkdir? “Normal” olmaq niyə bu qədər çətindir? Və nəyin “normal”, nəyinsə “anormal” olduğuna kim qərar verir? KİŞİLƏR AĞLAMAZ! – gender identikliyini, davranış qaydalarını və sosial quruluşları araşdıran incəsənət və ədəbiyyat layihələrini bir araya gətirən çoxşaxəli sərgidir. Sərgi ayrı-ayrı insanların talelərindən, insanın təkcə özünün deyil, həm də sosial gözləntiləri qarşılamasının çətinliyindən bəhs edir. Digər tərəfdən, bu layihə başqasının bədbəxtliyinə sevinmək, şayiələrdən və vuayerizmdən ləzzət almaq kimi paradoksal hallara nəzər salır.

What does it mean to be a man or a woman or both? Why is it so difficult to be normal? And who decides what normal is? BOYS DON'T CRY is a multidisciplinary exhibition that combines art and literature projects exploring gender identities, rules of behavior and social structures. It talks about personal destinies and the difficulty of fulfilling both the own but also social expectations. On the other hand the project reflects on the paradox of gloating, the pleasure of gossip and voyeurism.

AQİL ABDULLAYEV
Rocking my Gucci (İv ilə müsahibə), 2016-2017. Instagram performansı, fotolar, video müsahibə 15:25 dəq.

"Rocking my Gucci" – 2016-cı ilin sentyabr ayında rəssam Aqil Abdullayevin öz Instagram səhifəsində başladığı, bu günə qədər davam edən performansdır. Bu layihə "əsl kişi" obrazını şübhə altına qoyan yeniyetmələrin sosial şəbəkə mədəniyyətini təhlil edir. Müxtəlif "selfilər", kişi geyimləri və həyat tərzləri ilə bağlı postlar və statuslarla süni onlayn obrazları və "internet qəhrəmanları" yaradanda, gənc kişi nəslinin hərəkətləri və təsiri ilə bu sərhədlər daha "yumşaq" olur.

–

Aqil Abdullayev (1992) İngiltərənin Notinqem şəhərində yaşayır və fəaliyyət göstərir. O, öz işində əsasən hərəkətli təsvir, instalyasiya, səs və digər rəqəmsal vasitələrdən istifadə edir. Özünüqiymətləndirmə, narsisizm, identiklik və psixoloji sağlamlıq problemləri onun əsərlərinin başlıca mövzularıdır. Bununla yanaşı, Aqil bu gün "İnstaqram mədəniyyətində" əsl kişi simasının zəifliyini və "yumşaqlığını" da araşdırır. Rəssamın ilham mənbəyi öz həyat təcrübəsidir və performanslarında əsas material mənbəyi qismində öz bədənindən istifadə edir. Onun əsərləri, "A Lifeless lifestyle", Cyberplynth onlayn sərgisi (2017), London Future Tate, Turbine Hall, Tate Modern, Notinqem, Birləşmiş Krallıq (2016), Film free and easy, Primary Contemporary Art Space, Notinqem, Birləşmiş Krallıq (2016), Urban Enviroment, FC show, NTU Newton Building (2015), 4-cü Moskva Beynəlxalq Gənclər İncəsənəti Biennalesində (Nailə Allahverdiyevanın kuratorluğu ilə), Moskvada Müasir İncəsənət Muzeyində YARAT pavilyonunda ASTAR sərgisində (2014) nümayiş etdirilib.

—

AGIL ABDULLAYEV
***Rocking my Gucci (Interview with Yves)*,** 2016-2017. Instagram Performance, Photographs, Video interview, 15:25 min.

"Rocking my Gucci" is an ongoing Instagram performance by the artist Agil Abdullayev that he started in September 2016. It examines social media culture in boyhood that challenges the image of what is perceived as masculine. By the movement and the influence of a young generation of men the borders became more flexible when creating online personas through selfies, menswear and lifestyle posts.

–

Agil Abdullayev (b. 1992) is a Nottingham based artist (and student of Fine Arts) working in moving image, installation, sound and other digital mediums. Self-evaluation, narcisim, identity and mental health issues - are the main focuses that are surrounding his practice alongside flexibility of masculinity in the instagram culture. Agil brings together these themes using his own body as a material source and his life experience and performances as inspiration box. His works were shown among others at "A Lifeless lifestyle, Cyberplynth, Online exhibition (2017), Future Tate, Turbine Hall, Tate Modern, London, UK (2016), Film free and easy, Primary Contemporary Art Space, Notthingham, UK (2016), Urban Enviroment, FC show, NTU Newton Building, Nottingham, UK (2015), ASTAR, 4th Moscow International Biennale for Young Art, Curated by Nailya Allakhverdieva, Yarat Pavillion at MOMA, Moscow, Russia (2014).





ANKA QUCABİDZE
Bartın hekayəsi, 2017
Multimedia əsəri
7:13 dəq.

Anka Qucabidzenin multimedia əsəri Bart adlı transgenderin hekayəsindən bəhs edir. Bart Gürcüstanda yaşayır. Burada qədim adət-ənənələr qorunub saxlanılmaqla yanaşı, seksual azlıqlara mənsub olan (LQBTQ) insanların "əsl gürcü xarakteri" ilə tam ziddiyyət təşkil edir. "Niyyətim identikliklə bağlı düşüncələri dəyişməkdir. Bu, qorxu obyekti olmaqla yanaşı, nifrət və rədd ilə müşayiət olunur. Bu layihənin başlıca məqsədi cəmiyyətin tanımadığı fərdlərə qarşı aqressiv və zorakı yanaşmasını dəyişməkdir".

–

Anka Gujabidze (1987, Tbilisi) in 2010 she graduated from Shota Rustaveli Theatre and Film University, followed by her M.A. in Photography at the Royal Academy of Fine Arts (KASK) in Gent, Belgium. In December 2014, Anka Gujabidze was Listed for Magnum Emergency Fund. In her works, Gujabidze demonstrates a deep approach towards social issues, where she aims to show the accurate and bold truth of human stories. With a strong intention to explain and solve important social concerns, in 2015 Anka Gujabidze came together with 3 other photographers and co-founded a documentary photo collective in Georgia – ERROR IMAGES. Since 2015 she has been a member of the collective and brought a great success to it, with her project – "Bianka" – a hurtful and powerful story of a transgendered woman who passed away. Anka Gujabidze continues her work in ERROR IMAGES, conducts joint and individual photography and multimedia projects.

—

ANKA GUJABIDZE
Bart's story, 2017
Multimedia work
7:13 min.

The multimedia work by Anka Gujabidze tells the story of a transgender man called Bart. He lives in conservative Georgia where LGBTQ people are widely perceived to be in contradiction to what it means to be Georgian. "My intention is to transform ideas about identity that is an object of fear which in turn is followed by hatred and rejection. So it is very hard for one, to come out of the shadow. Especially when one is not considered as a part of society and her/his existence is permanently threatened. The main purpose of this project is to change aggressive and violent perception of individuals, with whom society is not familiar."

–

Anka Qucabidze (1987, Tbilisi) 2010-cu ildə o, Şota Rustaveli adına Dövlət Teatr və Kino Universitetini, daha sonra Belçikanın Gent şəhərində Kraliça Təsviri İncəsənət Akademiyasında (KASK) fotoqrafiya üzrə magistr təhsili alıb. 2014-cü ilin dekabrında Anka Qucabidzenin adı Magnum Fövqəladə Fonduna daxil edilir. Öz əsərlərində, Qucabidze sosial problemlərə qarşı dərin yanaşmanı nümayiş etdirir və burada müxtəlif insan hekayələrinin dəqiq və əsl həqiqətini göstərməyə çalışır. Vacib sosial problemləri izah və həll etmək arzusu ilə, 2015-ci ildə Anka Qucabidze 3 digər fotoqraf ilə bir araya gələrək, Gürcüstanda ERROR IMAGES adlı ilk sənədli foto kollektivini təsis etdir. 2015-ci ildən etibarən, Anka faciəvi surətdə dünyasını dəyişmiş transgender qadının son dərəcə ağrılı-acılı hekayəsindən bəhs edən "Bianka" layihəsi ilə böyük uğur qazanıb. Anka Qucabidze ERROR IMAGES çərçivəsində öz əsərini davam etdirir, birgə və fərdi fotoqrafiya və multimedia layihələrini həyata keçirir.

TAUS MAXAÇEVA
Qoy mən də hekayətə düşüm, 2012
3-ekranlı video instalyasiya
Nüsxə 2/5 +AP

Köpəkdöyüşdürmə
Rəngli, səsli, 19:51 dəq.

Köpəkdöyüşdürmə. Müsahibələr
Rəngli, səsli, 13:22 dəq.

Şimali Osetiya televiziyasının sənədli çəkilişləri, 23:19 dəq.

Taus Maxaçevanın "Qoy mən də hekayətə düşüm" adlı əsəri, Qafqaz kişiləri arasında çox populyar əyləncə növü olan Dağıstan İt döyüşləri çempionatından bəhs edir. Demək olar ki, həmişə yalnız kişilərin iştirak etdiyi bu tədbirdə, rəssam bir qadın it təlimçisini tapıb. Videoda əsas diqqət məhz bu qadına yönəlib. Qarşıda nümayiş etdirilən video dağıstanlı güləşçi, beşqat dünya çempionu Əli Əliyevin döyüşlərindən ibarət sənədli materialı əks etdirir. Bu instalyasiya, tamaşaçının diqqətini "tamaşa" qismində zorakılığa qarşı böyük sevgiyə, eləcə də insan xislətinə xas olan şan-şöhrət hərisliyinə yönəldir. Bir qədər məzəli və hazırcavab ruhda aparılan söhbətdə qanunsuz yarışlar əsas (qanuni) idman növləri ilə qarşı-qarşı qoyulur və hər iki növdə gizli oxşar məqamlar vurğulanır.

–

Taus Maxaçeva (b.1983, Moskva) hal-hazırda, Moskvada və Maxaçqala da yaşayır və fəaliyyət göstərir. Taus London Goldsmiths Kollecini təsviri incəsənət bakalavrı, London Kraliça İncəsənət Kollecini isə magistr dərəcəsi ilə bitirib. Rəssamın performansları əsaslı təcrübəyə arxalanır və diqqəti əsas etibarilə gender normaları və kollektiv yaddaşa yönəltməklə, Qafqaz mədəniyyətini araşdırır. Taus Maxaçeva 55-ci Venesiya Biennalesi, 11-ci Şarja Biennalesi, 7-ci Liverpul Biennalesi, 3-cü Moskva Müasir İncəsənət Biennalesi, Calvert 22 (London), "Qaraj" Müasir İncəsənət Muzeyi (Moskva) və digər tədbirlərdə iştirak edib. Rəssam London Delfina Fondunun təsis etdiyi ART Rezidentura proqramı (2015), Leypsiq GfZK Müasir İncəsənət Muzeyinin Avropanın Gələcəyi Proqramı (2014), Moskva Milli Müasir İncəsənət Mərkəzinin (2012) yeni nəsil kateqoriyasında innovasiyalar mükafatı daxil olmaqla, bir sıra tədbirlərin qalibi olub və mükafatlara layiq görülüb.

___

TAUS MAKHACHEVA
Let Me Be Part of a Narrative, 2012
Three screen video installation
Edition 2/5 plus AP

Dogfights
Colour, sound, 19:51 min.

Dogfights, interviews
Colour, sound, 13:22 min

Archival chronicles of the North Ossetian TV studio, 23:19 min.
Taus Makhacheva's "Let Me Be Part of a Narrative" focuses on the Dagestan Dog Fighting Championship, a popular entertainment among Caucasian men. Almost always exclusively all-male event, the artist found a female dog trainer and the video concentrates on her. The footage is shown opposite a documentary material from live-time world champion Dagestani wrestler, Ali Aliev's fights. The installation draws attention to the urge for violence as a form of spectacle and the desire for fame common to all humankind. The 'underground' competition is juxtaposed with mainstream sports in a witty conversation highlighting similarities implicit in both forms.

–

Taus Makhacheva (b. 1983, Moscow) lives and works in Moscow and Makhachkala. Taus Makhacheva holds a BFA from Goldsmiths College, London and a MA from the Royal College of Art, London. Her performance-based practice explores Caucasian culture with a greater

focus on prevailing gender norms and collective memory. Makhacheva has participated in exhibitions at the 55 Venice Biennial; 11 Sharjah Biennial; 7 Liverpool Biennial; 3rd Moscow Biennale of Contemporary Art; Calvert22, London; Garage Museum of Contemporary Art, Moscow among others. Makhacheva has won prizes including Residency at the Delfina Foundation, London (205); Future of Europe, GfZK Museum of Contemporary Art, Leipzig (2014); Innovation Prize, new generation category, National Centre for Contemporary Art, Moscow (2012).

ÇİNARƏ MƏCİDOVA VƏ LEYLİ SALAYEVA
Yalnız kişilər üçün *(qadınlar, utanmayın)*, 2017
Video/interaktiv performans
1:12 dəq.

Fotoqraf Çinarə Məcidova və şairə Leyli Salayevanın "Yalnız kişilər üçün (qadınlar, utanmayın)" adlı birgə layihəsi on iki qadının şeir söyləməsini əks etdirir. Bunu "Vulqar poeziya" da adlandırmaq olar. Bu şeir, qadınların real həyatda kişilərdən eşitdiyi və məruz qaldığı söyüşlərdən və təhqiramiz ifadələrdən ibarətdir. "XXI əsrdə, demokratik ölkədə yaşayan müasir qadınlar hələ də kənar şəxslərin təqiblərinə məruz qalırlar. Narahatlıq doğuran hərəkətlərlə bağlı problem öz həllini tapmayıb; çünki kişilər, bu işdə məhz qadınları günahlandırır, onları bu hərəkətlərə sövq etdiyini söyləyirlər. Cəmiyyətdə kişilərin hər hansı qadının "fərdi məkanına" müdaxilə etməsinin qarşısını alan sərt yanaşma hələ də yoxdur. Bəzən sözlərin təsiri fiziki əlaqəni təsirindən daha güclü olur". Layihənin başlıca məqsədi, diqqəti qadınların özlərini zəif və müdafiəsiz hiss etməyə vadar edən məqamlara yönəltməkdir. Sözügedən layihə, qadınların özlərini günahlandırması, ümidsizliyə düçar olması, iztirablar yaşaması ilə bağlı münasibətlərini dəyişməyə çalışır.
–

Çinarə Məcidova (d.1989) 2010-cu ildə Bakı Dövlət Universitetinin beynəlxalq hüquq fakültəsini bitirib. Aldığı təhsilə baxmayaraq, Çinarə özünü yazıçı, rəssam və videorəssam kimi də sınayıb və 2013-cü ilin sentyabrında Quram Tsibaxaşvilinin keçirdiyi YARAT foto ustad-sinfi, 2013-cü ilin oktyabrında Oksana Yuşko və Artur Bondarın keçirdiyi YARAT sənədli foto ustad-sinfi, 2014-cü ilin aprel-may aylarında Salam Yoursinin keçirdiyi YARAT teatr seminarı, 2014-cü ilin iyununda Sabina Şıxlinskayanın keçirdiyi YARAT "Artım" layihəsi, 2014-cü ilin noyabrında Robert Kahenin keçirdiyi YARAT videorəssamlıq (movie capturing) üzrə ustad-sinfi və 2016-cı il 24 fevral – 29 fevral tarixlərində Vyanada keçirilmiş "Bed sitter" İncəsənət Festivalı və digər layihələrin iştirakçısı olub.
–

Leyli Salayeva (d.1985) əsasən ingilis dilində yazan Azərbaycan şairəsidir. Azərbaycan Yazıçılar Birliyinin və Birləşmiş Krallığın "Şeir dərnəyi"nin üzvüdür. İlk şeir kitabı "Twelve Thirteen" ("On iki on üç") 2014-cü ildə işıq üzü görmüşdür. İki il sonra «Youtopia» adlı kitabı çap olunub və London Kitab Festivalının Fəxri mükafatına layiq görülüb. Həmçinin o, uşaqlar üçün yazdığı "Dilbərin qaşıq səyahəti" nağıllar kitabının müəllifidir. "Dilbərin qaşıq səyahəti" kitabı MDB ölkələrinin XIII "Kitab sənəti" Beynəlxalq Festivalının 2-ci mükafatını qazanıb. Leyli Salayevanın şeirləri Avropa Azərbaycan Cəmiyyətinin (AAC) jurnalı, Culture & Creativity EU-European Partnership Program və Böyük Britaniya Kitabxanasının saytlarında, Avropa və Amerika onlayn nəşrlərində dərc olunub. Şeirlərində inancları ifadə edir və onları emosional təcrübə mübadiləsi üçün istifadə edir. Leylinin yaradıcılığının ilham mənbəyi - musiqi və insanlardır.

——

CHINARA MAJIDOVA AND LEYLI SALAYEVA
Men only *(women be not ashamed)*, 2017
Video/participatory performance
1:12 min

Chinara Majidova's (photographer) and Leyli Salayeva's (writer) collaborative project "Men only (women be not ashamed)" presents twelve women telling a poem that might be called "Vulgar Poetry". This poem consists of insulting expressions that these women encountered by men in their real live. "Modern women who live in 21st century and in the democratic country are still being harassed by the strangers. The problem with the harassment remains unsolved, because women are blamed of provoking men to do so. There is still no firm attitude in the society that prevents men from invading

personal space of a woman. Sometimes words may have greater impact than physical contact." The project aims to raise attention to moments in women live that make them feel vulnerable and insecure. It is an attempt to change women attitudes towards harassments, in terms of self-blame and mortification.

–

Chinara Majidova (1989) has graduated from International Law Department of Baku State University in 2010, aside she practiced as a writer, painter and video artist. She participated in projects such as Yarat photo master class by Guram Tsibakhashvili, September 2013, Yarat documentary photography master by Oksana Yushko and Artur Bondar, October 2013, Yarat Salam Yoursy theater workshop April –May, 2014, Yarat "Artim" project by Sabina Shixlinskaya - June,2014 Yarat Robert Cahen Video art master class (Movie capturing, November 2014) and Bed sitter art fair (Vienna , 24 February-29 February,2016).

–

Leyli Salayeva (b.1985) is an Azerbaijani author who writes contemporary poetry in English. Salayeva holds a Bachelor Degree in English Linguistics from the Azerbaijan University of Foreign Languages and an MBA from the Azerbaijan Oil Academy. Her poetry book Youtopia received Honorable Mention at 2016 London Book Festival and her book for kids Dilber and Her Spoonful Journey won second place in the XIII International Competition among The Commonwealth of Independent States (CIS) Countries "Art of the book". Her poems and articles have been featured on website of Culture & Creativity EU-European Partnership Program, UK and USA webzines.

JARO MİNNE
Čhavo, 2015
Video
3:40 dəq.
Somesuch, deFilm-in istehsalı
Channel 4 (Random Acts) tərəfindən sifariş olunub

"Čhavo" (gənc oğlan) adlı video əsəri, bir neçə ay həbsxanada keçirdikdən öz evinə dönərək ailəsinə və gələcək həyat yoldaşına yenidən qovuşan gənc qaraçı oğlanın həyatından bəhs edir. Filmin müəmmalı xarakteri fiziki açıqlıq və romantik xiffət hisslərini araşdıran bəsit hekayə formasını təmsil edir.

–

Belçikalı film rejissoru və fotoqraf **Jaro Minne** (d.1992) adətən Şərq-Qərb mədəni baryerlərini tədqiq edir. Onun

əsərləri uzaq və yaxın məsafələri bir araya gətirir və özü xarakterik sadəliyi ilə seçilir. Subyektiv prizma üçün seçim edən Jaro bu və ya digər hekayənin elementar formasını, xəyali aləmlə gerçəklik arasında incə balansını araşdırır.

___

JARO MINNE
Čhavo, 2015
Video
3:40 min.
Produced by Somesuch, deFilm
Commissioned by Channel 4 (Random Acts)

The video work Čhavo – which means young man in Romanian language - is a raw depiction of a young man in coming home after months in confinement, reconnecting with his family and future wife. The enigmatic nature of the film represents a rudimentary form of narrative, exploring a sense of physical directness and romantic longing.

–

Jaro Minne (b. 1992) is a Belgium filmmaker and photographer who often works on the East-West cultural divide. His work combines intimacy with distance and is marked by a certain simplicity, slowness. Choosing for a subjective viewpoint, he explores a rudimentary form of narrative and the fine balance between the imaginary and the real.

JARO MİNNE
Sərnişinin məktubları, 2017
Foto instalyasiya

Müxtəlif ölçülər

Belçikalı rəssam, fotoqraf və kinorejissor Jaro Minne, "Sərnişinin məktubları" adlı cari layihə üçün Bakıda tanımadığı insanların evlərinə, yaşayış mühitinə daxil olan əcnəbi qonaq və səyyah rolunu oynayır. Bu layihə, Jaronun Tbilisidə keçirdiyi eyni layihənin davamıdır.
"Azərbaycan əhalisi öz qonaqpərvərliyi ilə çox məşhurdur. Amma mən, daha çox gecələr, digər sözlə, diqqət mərkəzində olmadığım vaxtda baş verənlərlə maraqlanıram. Mən, kiminsə həm real, həm də xəyali həyatını təsvir edə bilən müəyyən intensivliyi və məkanları axtarıram. Bu əsər, daha çox yaxınlıq, sıx ünsiyyət haqqındadır". Onun silsilə əsərlərinin əsas diqqəti qızlar və oğlanların tanış mühitdə özlərini necə aparmasına, özlərini rahat hiss etməsinə, xəyallara qərq olması, başlarının ev işləri kimi işlərə qarışması, qeybət qırmaları və ya veyllənmələri kimi məqamlara yönəlir. Fotoşəkillər böyük ehtimalla bu dünyada onları istiqamətləndirə bilən məkan axtaran bu gənc insanların incə, xəyalpərəst məqamlarını əks etdirir.
–
Belçikalı film rejissoru və fotoqraf **Jaro Minne** (d.1992) adətən Şərq-Qərb mədəni baryerlərini tədqiq edir. Onun əsərləri uzaq və yaxın məsafələri bir araya gətirir və özü xarakterik sadəliyi ilə seçilir. Subyektiv prizma üçün seçim edən Jaro bu və ya digər hekayənin elementar formasını, xəyali aləmlə gerçəklik arasında incə balansını araşdırır.

——

JARO MINNE
Letters of a passenger, 2017
Installation with photographs
Variable dimensions

For the ongoing project "Letters of a passenger" the Belgium artist photographer and filmmaker Jaro Minne takes the role of a wanderer, a stranger who immerses into private homes of people in Baku that he doesn't know. It is a continuation of a similar ongoing project he is working on in Tbilisi. "Azeri people are famously hospitable but I am more interested in what happens later at night, when I stop being the centre of attention. I am searching for a certain intensity and for spaces that describe somebody's life, both real and imagined. Most importantly, the work is about intimacy". The series focuses on boys and girls in moments within their familiar environment, where they feel comfortable, lost in thoughts, lost in their activity as homework, chatting or fooling around. The photographs capture these fragile, contemplative moments of these young humans seemingly searching for a place, a positioning in the world.
–
Jaro Minne (b. 1992) is a Belgian filmmaker and photographer who often works on the East-West cultural divide. His work combines intimacy with distance and is marked by a certain simplicity, slowness. Choosing for a subjective viewpoint, he explores a rudimentary form of narrative and the fine balance between the imaginary and the real.



AYXAN XƏLİLOV
Olar – Olmaz, 2017
Video, performans

Videorəssam Ayxan Xəlilov eyni zamanda iki otaqda baş verən, digərlərinin mühakiməsi ilə formalaşan və idarə olunan performans vasitəsilə araşdırma aparır. "OK" adlı otaqda, ana və qızı oturub gəlib-gedən insanları müşahidə edirlər. İkinci, "NOT OK" adlı otaqda isə, qonşu məhəllənin "qaqaşları" televizor vasitəsilə digər otaqda baş verənləri seyr edir və müzakirə edirlər. Bu "qaqaşlar", din və yerli inancların təsiri altında cəmiyyət tərəfindən formalaşmış yazılmamış qanunların daşıyıcıları sayılırlar. "Bu axmaq qaydalar olmasaydı, cəmiyyətdə çoxdan parçalanma baş verərdi. Çünki, məhz mənəvi davranış nümunələri cəmiyyətin təhlükəsizliyini və funksionallığını qoruyub saxlayır. Söhbət bu qaydaların yaxşı və ya pis olmasından getmir. Bu qaydalar həmişə olub və olacaq. Bu layihə, sərhədlərin nə dərəcədə "yumşaq", digər sözlə, asanlıqla dəyişikliyə məruz qalmasını sual altına qoyur".

–

Ayxan Xəlilov (d.1992) peşəcə iqtisadçı olsa da, 19 yaşından etibarən videomateriallarla eksperimentlər aparmağa başlayıb. O, Çingiz Babayev, Sabina Şıxlinskaya, habelə Praqa Teatrşünaslıq Akademiyasının Film və Televiziya Məktəbi tərəfindən keçirilmiş seminarlarda iştirak edib. Ayxanın əsərləri 2014-cü ildə Bakıda Müasir İncəsənət Muzeyində "Missed Call" (Buraxılmış zəng) və "Tied Art" (Bağlanmış incəsənət) adlı sərgilərdə nümayiş etdirilib.

——

AYKHAN KHALILOV
Ok – Not Ok, 2017
Video & Performance

The video artist Aykhan Khalilov investigates through a performance piece happing in two rooms how rules of behavior are created and dominated by the judgment of others. In the room "OK" a mother and her daughter are sitting and observing the audience entering. In the second room "NOT OK" guys from the local "neighborhood" ("qaqashlar") are watching and discussing through a TV what is happing in the other room. These guys are considered to be the carriers of unwritten rules established by society under influence of religion and local beliefs. "Without these dumb rules, society would fall apart, since it is moral – behavior patterns remain the safety and functionality of society. But the question is not whether these rules are good or not. They have always been and will be. This project asks rather the question on how flexible their boundaries are".

–

Aykhan Khalilov (b.1992) trained as an economist he started experimenting with video materials from the age of 19. Khalilov participated in workshops by Chingiz Babayev, Sabina Shixlinski and by the Film and TV School of the Academy of Performing Arts in Prague, Czech Republic. His works were featured in exhibitions such as "Missed Call" and "Tied Art" in the Carpet Museum and the Museum of Modern Art in Baku (2014).

LEYLA NOVRUZOVA VƏ GÜLYA NOVRUZOVA
***Sevgi məktubları*,** 2016-cı ildən davam edən layihə
Ədəbiyyat layihəsi

Yazıçılar Leyla Novruzova və Gülya Novruzovanın ərsəyə gətirdiyi layihə "Sevgi nədir?" sualının cavabını

tapmağa cəhd göstərir. Bu layihə, real insanların real sevgi hekayələri üzərində qurulub. Niyə insanlar sevgi naminə axmaq işlər görürlər? Niyə sevginin ağrı-acısını yaşamış adam geri dönmək və bu möhtəşəm hissi yenidən yaşamaq istəyir? Sizcə nə yaxşıdır – böyük sevgi yaşayıb onu itirmək, yoxsa ümumiyyətlə onu dolğun və tam parlaqlığı ilə yaşamamaq?

–

Leyla Novruzova (d.1971, Bakı) və **Gülya Novruzova** (1959, Bakı) Azərbaycan Dövlət Dillər Universitetini bitiriblər. Bir qadının həyat hekayəsindən ilhamlanaraq "Sevgi məktubları" adlı müsahibə layihəsini ərsəyə gətirdilər. Özünü sevgiyə həsr edən, öz kişisini hamıdan üstün tutan qadın sonda məhz onun digər qadının yanına çıxıb getməsi kimi böyük xəyanətlə üzləşir. Ərinin bu hərəkəti onun həyatını büsbütün alt-üst edir və həyatda heç nəsiz qoyur. Bu hekayə onları o qədər təsirləndirdi ki, onlar daim onları narahat edən bir sualın ("Sizcə nə yaxşıdır – böyük sevgi yaşayıb, sonra onu itirmək, yoxsa bu sevgini ümumiyyətlə yaşamamaq?") cavabını tapmaq üçün bu layihəni başladılar.

–

LEYLA NOVRUZOVA AND GULYA NOVRUZOVA
Love letters, 2016-ongoing project
Literature project

The project by the writers Leyla Novruzova and Gulya Novruzova tries to explore what love actually is. It is based on real people and real love stories. Why are people doing crazy things in the sake of love? Why do people who got hurt, would still go back and re-live those incredible feelings? What is better: to experience great love and lose it or never experience it in it's full intensity?

–

Leyla Novruzova (b. 1971, Baku) and **Gulya Novruzova** (b. 1959, Baku) graduated both at the Azerbaijan University of Languages. Fascinated by a story of one woman's life, they initiated the interview project „Love Letters". The women dedicated herself to love and in the end the man who became her universe, left her for another woman. This ruined her completely, leaving her with nothing in her life. Intrigued by this story, they embarked on a project to explore the questions that always interested them: What is better: to experience love and lose it or never experience it?

MƏRYƏM

Məryəm gənc və çox yaraşıqlı xanımdır. Cavan yaşına, kənardan qayğısız görünməsinə baxmayaraq, o, böyük həyat məktəbi keçib və zamanın çətin sınaqlarına sinə gərib. Məryəmin aləmində **sevgi ilk növbədə özünə qarşı sevgidir; "hər şeyin kökündə məhz sevgi dayanır"**. Məryəm hesab edir ki, sevgi fərqli olsa da, daim qarşılıqlı inam və ehtiram üzərində qurulmalıdır: *"gərək hamı bu hissi mütləq yaşasın"*.

Məryəmin sevgi və həyat hekayəsi müxtəlif kişilərlə bağlıdır. 18 yaşı olanda, o, bir oğlana aşiq oldu və bu eşq 3 ildən çox davam etdi. Sevgilisi ona qarşı məhəbbətini sonsuz diqqətlə və gözəl jestlərlə ifadə edirdi. Məryəm onun öz ətrafında yaratdığı ab-havanı çox sevirdi və onunla birgə olmaqdan, bu qeyri-adi mühitə qərq olmaqdan zövq alırdı. Sevgilisindən hər dəfə mesaj alanda, Məryəmin ürəyi dəlisov sevinclə çırpınırdı. Məryəm ona sevinc bəxş etmək, hər zaman yanında olmaq istəyirdi. **"Qışın oğlan çağında ayağıma səndəl geyinib çıxardım - təki sevgilimin xoşuna gəlsin"**, deyə o öz hisslərini çox təsirli şəkildə ifadə edir.

Zaman ötdükcə, Məryəm başa düşürdü ki, sevgilisi onunla evlənmək məsələsinə çox da ciddi yanaşmır. Günlərin bir günü, o, Məryəmə açıq şəkildə onunla intim əlaqədə olmaq istəyini bildirdi. O, bu işi, gələcəklə bağlı üzərinə heç bir öhdəlik götürməmək şərtilə, çox "praktik şəkildə" görəcəyini dedi. Məryəm öz sevgilisinin dəli-divanə olsa da, onun üçün hər şey etməyə hazır olsa da, çox məğrur qız idi və bu həyasız təklifi qəbul edə bilməzdi. Bu təklif onu çox pis vəziyyətdə qoydu...

Bu söhbətdən xeyli vaxt keçməsinə baxmayaraq, Məryəm hələ də onu sevirdi və onunla birgə olduğu günlər üçün darıxırdı. "Mən ona zəng etdim və dedim ki, gəl görüşək. Mən böyük qara gün eynəyi taxmışdım və özümü ona təklif etdim...", deyə Məryəm utanaraq gülür.

İndi isə növbə oğlanın idi. O, bu "təklifdən" imtina etdi. "Hesab edirəm ki, həmin vaxt o mənə hörmət etdi və sadəcə mənimlə seksl ə məşğul olmaqla, həyatımı alt-üst etmək istəmədi. O, hələ də mənimlə evlənməyi planlaşdırmırdı. **Mən onunla ailə qurmaq üçün yanlış namizəd idim... O, zəngin və güclü əlaqələri olan ailədən qız axtarırdı...**", deyə Məryəm izah edir.

Zaman ötdü və Məryəm bir kişiyə ərə getdi. Elə "bal" ayında əri öz zorakı xarakterini göstərməyə və onu təhqir etməyə başladı. O, Məryəmin şəxsiyyətini alçaldır, onu söyür və onun heç nəyə qadir olmadığını deyirdi. Məryəm bu təhqirlərə dözürdü. Amma, bir gün Məryəm ona özü haqqında təlqin edilən bu təsəvvürdən "ayıldı" və onun zorakı münasibətinə dözməməyi qərara aldı.

Məryəm onun zorakılığından son dərəcə qorxsa da, buna son qoymaqla bağlı cəsarətli qərar verdi. O, iki uşağını götürərək ərini həmişəlik tərk etdi. Məryəm bilirdi ki, ağrılı-acılı boşanma prosesini tamamlayana qədər, əri onun həyatını cəhənnəmə çevirəcək. Buna baxmayaraq, o özündə müəyyən dərəcədə rahatlıq hiss edirdi. O, bilirdi ki, ayağa qalxıb, "üst-başını təmizləyib", topladığı həyat təcrübəsi ilə həyatına davam edəcək. "Mən başa düşdüm ki, həyat - Allahın insana verdiyi bir hədiyyədir və çox qısadır. Əgər bu hədiyyə mənə də nəsib olubsa, gərək çalışım ki, onu yaxşı yaşayım".

Heç zaman sevgi yaşamamış gənc xanımlara hansı dəyərli tövsiyələri verəcəyini soruşanda, Məryəmin cavabı belə oldu: "Mən xanımlara 30 yaşına qədər ərə getməməyi, bu vaxta qədər müəyyən həyat təcrübəsi toplamağı və öz prioritetlərini dərk etməyi tövsiyə edirəm". Qazandığı təcrübəyə görə, Məryəm həyatına minnətdar olduğunu bildirir. Çünki həyat, Məryəmin indi olduğu kimi, **cəsur, özünə arxayın, hələ də sevgiyə inanan və bir gün öz həqiqi məhəbbəti ilə üzülüşəcəyinə ümid edən qadın** kimi formalaşmağa kömək edib.

***

MARYAM

Maryam is a beautiful young woman who despite of her young age and seeming carelessness has been through a lot in her adult life. For her, **love is in the first instance love to yourself – "this is a root cause to everything"**. She believes that love can be different but it's always about trust and respect and it is something that everyone should experience.

Her love story and story of her life are about different men. She fell in love when she was 18 years old and it lasted for more than 3 years. He showered her with attention and beautiful gestures. She loved the atmosphere he was creating around himself, enjoyed going out with him and diving into this special atmosphere. Every text from him filled her heart with wild joy. She wanted to please him, to be with him all the time. **"I could walk in sandals in the winter if this would please him"**, she is touchingly

explicit about her feelings.

With time going on, she realized that he was not planning to marry her, and then one day he openly offered her to become intimate. He did this in a very practical way, without any commitment for the future. She was in love and would have done anything for him but she was too proud to accept this bold proposal. It humiliated her.

More time passed but she was still in love with him, she was missing his company a lot. "I called him and asked to meet. I put on big black glasses and offered myself to him…" she smiles a bit shyly.

It was now his turn not to accept the 'offer'. "I think he respected me by then and didn't want to ruin my life by just having sex with me, and he still wasn't planning to marry me. **I was a wrong candidate for marriage… He was looking for a girl from a rich or well-connected family…' she explains.**

She married a man who was violent and started abusing her during their honeymoon and never stopped. She was patient with him because he suppressed her individuality, convinced her that she was worth nothing. But she awoke from this self-perception and did not have to put up with his violence.

His violence made her fear the death and she made a brave decision to stop it. She took her two kids and left him for good. She knew that he would continue to make her life a hell putting through painful divorce process, but she felt relieved. She knew that she would just shake herself up and go on with her life, having gained a life experience. 'I realized that life is a gift and is short and I simply have to live a good life while I have this gift.

When asked what she would advise to a young girl who has not yet experienced love, Maryam said that the only advice she would give would be not to get married before 30 when you have certain experience and understand your priorities.

In a way she is grateful to life for the experience she got as it helped her to become what she is at the moment: **a brave, confident woman who still believes in love and that she will one day meet her true love.**

ZƏRİFƏ

Zərifə öz hekayəsinə belə başladı: **"Mən sevgiyə inanmıram".**

Zərifə sadəcə bir insanın digərinin hisslərinə qarşı "pozitiv" yanaşmasına inanır. O, sevgini **"qarşılıqlı emosiya"** kimi təsvir edir. Zərifənin bu emosiyanı yaşadığı dövrlə bağlı çox isti xatirələri var. Onun cəmi 14 yaşı var idi və ilk məhəbbəti 22 yaşa qədər davam etdi. Onlar İnternetdə tanış oldular, əvvəl bir-birlərinə mesaj yollamağa, sonra telefonla danışmağa, daha sonra isə görüşməyə başladılar. Zərifə sevgilisi ilə ünsiyyətdən zövq alır və onu maraqlı şəxs sayırdı. Onların münasibətlərində ayrılıqlar də olub: o, vaxtaşırı "qeyb olurdu". Yenidən "peyda" olanda, o, Zərifəyə "yox olması" ilə bağlı şirin nağıllar danışırdı. Zərifə onun dedikdlərinə inanmağa və qəbul etməyə üstünlük verirdi. Çünki, öz inamsızlığı ilə onu özündən uzaqlaşdırmaq istəmirdi. Bir dəfə Zərifə sevgilisinin digər qızla

yazışmasını oxudu və bu dəfə onların ayrılığı 2 il davam etdi.

Zərifə hiss edirdi ki, onun sevgilisi, onların münasibətlərinin digər, daha ciddi səviyyəyə keçməsi ilə bağlı heç bir tədbir planlaşdırmır. Sevgilisi Zərifədən onunla cinsi əlaqədə olub-olmamaq istəyini soruşanda, Zərifə ona tam səmimiyyətlə "mənimlə nə istəyirsən et" dedi. Amma oğlan Zərifəyə hörmət etdiyinə görə, ona əl vurmaq istəmədi. Zərifə əmin idi ki, oğlan onu sevir. Öz ailə öhdəliklərinə, atası və bacısının qayğısına qalmalı olduğuna görə, o, Zərifə ilə evlənə bilməzdi. Amma, belə bir vəziyyət Zərifənin qıcıqlandırmağa başladı və o, bu münasibətlərə son vermək qərarına gəldi. Zərifənin sevgilisi bunu faciəyə çevirmədi və normal qarşıladı.

Zərifə **çox darıxırdı və həm ərə getmək**, həm də digər tərəfdən valideynlərinin evini tərk etmək səbəbindən ərə getdi. İlk əvvəl hər 2 tərəfin münasibətləri çox soyuq idi. Heç bir ehtiras, çılğın sevgi hissləri yox idi. Belə ki, Zərifənin əri ondan 15 yaş böyükdür və Zərifə, yaş fərqinin başlıca problem olduğunu bildirir. Onların ümumi maraqları yoxdur və yaş fərqi bu problemi daha da dərinləşdirir. Zərifə öz ərini tərk etmək üçün plan qurur, ona sadəcə bir bəhanə, "səbir kasasının daşması" üçün "son damla" lazımdır. Halbuki, uşaqların olmaması onun ərini daha asanlıqla və daha "gerçək" səbəblə tərk etməsi planını gerçəkləşdirməyə imkan verir.

Münasibətlərin müəyyən bir məqamında, Zərifə boşanmağa çox yaxın idi. Zərifə işləyirdi və özünə vəkil tutmuşdu. Əri Zərifəni yanında saxlamaq üçün əlindən gələni edirdi və onun bütün istəklərini yerinə yetirirdi. Nəhayət, ərinə yazığı gəldiyi üçün, Zərifə ona ikinci şans vermək qərarına gəldi. "O çox yazıq idi", deyə Zərifə qeyd edir.

Zərifə düşünür ki, əri onu "öz bildiyi kimi" sevir. Amma, bu cür sevgi ona lazım deyil; bu sevgi, onda heç bir qarşılıqlı hiss oyatmır... Əri, Zərifənin ondan asılı olmasını istəyir. Məhz bu səbəbdən, Zərifənin karyera ilə bağlı istəklərini və ya sevimli məşğuliyyətlərini dəstəkləmir. Həm də əri onun maliyyə baxımından müstəqil olmasını istəmir...

Öz sosial statusunu düzgün səviyyədə qoruyub saxlamaq baxımından, Zərifəni saxlamaq və ailəli olmaq çox vacibdir.

Zərifədən yenə sevgi yaşamaq və həyatında yeniliyin baş verməsini istəyib-istəmədiyini soruşanda, o, bu suala qətiyyətlə "HƏ" dedi. Amma, sonra, o cavabına əlavə etdi ki, bu məsələ *qarşılıqlı* olmalıdır. Onun hansısa yeni bir hissi yaşaması üçün, gərək birinci kimsə ona aşiq olsun. Zərifə xəyallarında bu "ağ atlı şahzadənin" yaşca öz ərindən cavan, xasiyyətcə isə çox fərqli olmasını istəyir.

"Mənimlə bir nəfər maraqlanırdı. Amma, mən onunla ciddi münasibətlərə getmək istəmədim, çünki o, ərimlə eyni tipdə olan bir adam idi." Buna baxmayaraq, Zərifə bu *emosiyanı* yenidən yaşamağa hazırdır.

***

ZARIFA

Zarifa starts the conversation by saying that **she doesn't believe in love.**

She believes in positive emotions in response to someone's feelings towards you. She describes love as an **emotion in response**.

She has a warm memory about the time when she experienced this *emotion*. She was 14 years old and it lasted until she was 22. They met in internet, were exchanging notes first, then were talking over the phone and then met in reality. She enjoyed socialising with him, found him interesting as an individual. There were breaks in their relations: he just disappeared from time to time. When re-appearing, he was telling her the 'tales' about why he took time-out and she preferred to believe and accept because she didn't want to put him off by her distrust. Once when she read his correspondence with another girl, their break lasted for 2 years.

She felt that he was not planning to take any action to move their relations to a different level. When asked whether she was ready to have intimacy with him, Zarifa honestly said that he could do with her whatever he wanted, but he didn't want to, because he respected her. She was sure that he loved her. He couldn't marry her because of family obligations that he had to take care of his father and sister.

This entire situation started to irritate her and she decided to stop their relations. He accepted this without drama.

She married by inertia, out of boredom, and partially because she just wanted to quit parents' home. Relations were very reserved from both sides from the start. No passion, no special feelings.

He is 15 year older than her and she sees this as a problem. They don't have much in common anyway and age difference only makes it worse. She entertains the idea of leaving him; she just needs something to trigger it, to be the 'last straw'. Not having children makes the thought of her leaving him easier, more realistic...

She was very close to divorce at one point. She got a job, hired a lawyer. He did everything possible to keep her, fulfilled all her requests. She decided to give him a second chance, most likely because she felt sorry for him. "He was pathetic", she said.

She thinks that he loves her in his own way. But this is not the love that she needs: it doesn't raise any feeling in her. He wants her to depend on him; therefore he is not supportive of her career or hobbies. He doesn't want her to have financial independence…

It is important for him to keep her because it's important for him to be married to support his social status on the right level.

When asked if she would like to experience love and have something new to happen in her life, she readily said 'yes', but then added that this should be *in response*. Someone needs to fall in love with her first so that she starts feeling something. She imagines this person as not much older than her and very different to her husband in character.

"There was someone interested in me, but I didn't want to go into relations as he was of 'same kind as my husband'. Still, she is ready to experience *the emotion* again.

FƏRHAD

Özü bəhs etdiyi kimi, Fərhadın hekayəsi, demək olar ki, lap uşaqlıq dövrünə gedib çıxır. Onun cəmi 10, "sevgilisinin" isə vur-tut 8 yaşı var idi. Onlar uşaq olsalar da, bir-birlərinə qarşı çox güclü hissləri var idi☺... Fərhad indi də onun yaşadığı yeri, ərinin kim olduğunu və harada işlədiyini, onun 3 övladının olduğunu, bir sözlə - hər şeyi bilir. Əgər imkan olsaydı, Fərhad indi onunla əlaqə qurardı? Çox ehtimal ki, yox. Çünki o, indi sevdiyi xanım üçün çox "korlanıb". Fərhad üçün sevgilisi bir "mələkdir" və o, xanımın indiki vəziyyətini pisləşdirmək istəmir. Onun xanımla bağlı öz xəyalları var. Çox zəngin xəyalları... Fərhad hələ də nə vaxtsa onunla bir yerdə olacağına ümid edir.

Onlar bir yerdə olması mümkün olmadı. O vaxt, qərar qəbul etmək üçün Fərhad çox gənc idi, həm də **xanımın ailəsi, ümumi vəziyyəti buna imkan vermirdi. Bundan əlavə, 1989-cu ildə toysuz-nişansız ailə qurmaq yaxşı iş sayılmırdı.** Bir neçə il əvvəl, həm Fərhad, həm də xanım öz ailələri ilə eyni reyslə Türkiyəyə uçurdular. Və onlar bir-birlərini gördülər. Söhbət etməsələr də, baxışları toqquşdu. Necə deyərlər, "arifə bir işarə də bəsdir". Fərhad başa düşdü ki, xanımın ona qarşı hissləri hələ ölməyib. "Məncə o, bir qadın kimi öz əri ilə xoşbəxt deyil", deyə Fərhad bildirir. **"Bilirsiniz, qadının xoşbəxt və ya bədbəxt olmasını görmək üçün, onun gözlərinə baxmaq kifayətdir."**

Fərhad inanır ki, əgər istəsə, xanımı özü ilə apara bilər. Amma, indiki vəziyyətdə bu xanıma nə verəcək? Əgər xanım öz ailəsini sevgisinə qurban verərsə, bu ona nə verəcək? Və ümumiyyətlə buna dəyərmi? Fərhad bunun əvəzində xanıma uzun müddətə nə verə bilər? Xanımı "yoldan çıxarmaq" fikri ilə yanaşı, bütün bu suallar onun beynində fırlanır. Xanım sadəcə "münasibət" qurmaq üçün Fərhada çox dəyərlidir.

Fərhadın ikinci sevgi hekayəsi də çox həssas və romantikdir. Onlar yerdə, göydə, yağışın altında, binanın damında - hər yerdə sevişiblər. Fərhad, xanımın həyatında ilk kişi idi və ona çox şey öyrədib. Xanımla bağlı "marağı öləndən" sonra, Fərhad onu tərk etdi.

Fərhadın növbəti sevgi hekayəsi keçmiş həyat yoldaşı haqqındadır. Ata-anasının narazılığına baxmayaraq, Fərhad onunla ailə qurdu. Fərhad, evlənməklə bağlı seçimi özü etmək, bu hüquqdan istifadə etmək istəyirdi. Onlar ailə kimi cəmi 2 il xoşbəxt yaşadılar və bu vaxt ərzində onların sevimli oğlu dünyaya gəldi. Daha sonra, maliyyə çətinlikləri ucbatından onlar bir-birlərindən ayrıldılar və hər biri öz valideyninin yanına qayıtdı.

Bir neçə il ayrı yaşayandan sonra, Fərhad və onun keçmiş həyat yoldaşı yenidən birləşməyə qərar verdilər. Sonra, Fərhad xanımının öz karyerasında irəli getməyə kömək etmək üçün ona "sərmayə qoymağa" başladı. O, xanımı lazımi insanlarla tanış etdi, ona bank sektoruna işə düzəlməyə kömək etdi və onun uğurlu işgüzar xanıma çevrilməsində yaxından iştirak etdi. Xanım yavaş-yavaş nailiyyətlər əldə etdikcə, Fərhad artıq onun üçün maraqsız görünürdü...

Xanım yeni "macəralar" axtarırdı. Nəhayət, bir gün o, Fərhadı və öz yeniyetmə oğlunu tərk etdi. Fərhad bunu son dərəcə ürək ağrısı ilə

qarşıladı. O, xanımını dəstəkləmək üçün əlindən gələni etdiyini, bunun müqabilində isə xanımının bu dərəcədə nankor olmasına dözə bilməzdi. Həyat yoldaşı Fərhadı həyatının çox çətin, sağlamlığı və işi ilə bağlı problemlərin olduğu bir dövrdə tərk etdi. O, bu problemlərin bir hissəsi olmaq istəmirdi.

Həmin vaxtdan etibarən, Fərhadın qadınlara münasibəti tam fərqlidir. O, sonradan eyni ağrını-acını yaşamamaq üçün, heç kimi həddən artıq yaxına buraxmır. Onun eyni zamanda bir neçə sevgilisi var və "öz ehtiyaclarını ödəmək" üçün, qadınlardan əməlli başlı istifadə edir. O, qadınları yoldan çıxarmaqdan, qadınların onu "əllərində" qoruyub saxlaması üçün hər şeydən keçməyə hazır olmalarından ləzzət alır. Fərhad bu "Oyunu" oynayır və bu onun xoşuna gəlir. **Bu oyunun başlıca üstünlüyü itirmək riskinin olmamasıdır**.

Ola bilsin ki, gələcəkdə Fərhad kiminləsə rastlaşsın və onunla birgə yaşamaq istəsin. İstənilən şəxs, istənilən yaşda xoşbəxt olmağa layiqdir. **Həmin insanın sevmək, aşiq olmaq üçün gənc olması vacib deyil...**

***

FARHAD

Farhad's story goes back to 'almost childhood' as he describes himself. He was in 10th form and she was in 8th... They were kids, but it was a strong feeling. He knows all about her: where she lives, what she does, who is her husband, where he works and that she has 3 kids. Would he want to get into relationship with her now? Probably no, he is too 'dirty' for her now. She is an idol and he doesn't want to bring her down. He has fantasies about her. Very bold fantasies. He still entertains the thought of being with her one day.

They couldn't be together as he was way too young to settle and **with her family and background and back in 1989 it was not acceptable to date without being engaged**. Several years ago, they were on the same flight to Turkey, both with families. They didn't talk, but their eyes crossed. This was enough for him to realize that she still had feelings for him. 'I don't think she is happy as a woman with her husband', he says. **'You know there is something in the woman's eyes that make it obvious whether she's happy or not...'**

He believes that if he wanted she would follow him, but what this will leave her with?

What will she gain for her sacrifice, for pain of leaving her family? What can he offer her in the longer term? These are all the questions in his head along with an idea of seducing her. She is too precious for him to just have 'a relationship'.

His second love story was very sensual and romantic. They had sex everywhere, including roof top under the rain. He was her first man and taught her a lot. Once he 'fulfilled' his interest towards her, he left her.

His next love story is about his ex-wife. He married her despite of disapproval from his family. He wanted to have right to choose whom to marry. They lived happily for 2 years, within which their beloved son was born. Then they separated mainly because of financial

difficulties and each of them went to live with their parents.

After several years of being apart, he and his wife decided to move in together. This is when he started to 'invest in her' to help her to fulfil herself in her career. He introduced her to the 'right people', helped her to get into the bank sector, supported her transition into a successful business woman. When she achieved something, she felt bored with him and started looking for 'adventures'. She left him and her teenage son. He feels hurt, paid back with ungratefulness for his genuine support of her: she left him at a difficult moment of his life when he had health issues and problems at work. She didn't want to be part of this.

His relationship with women have been different since then. He doesn't allow anyone to come close enough to him to be able to hurt. He has several relations at a time and enjoys taking advantage of women, making them to 'serve his needs'. He enjoys seducing them and making them ready to do anything to keep him. He plays a Game and enjoys it. And **the Rule of the game is to play without being afraid to lose**.

He might meet someone and choose to stay with her. One can be happy at any age, **you do not have to be young to experience love**.

ƏSƏD

Sizcə Allah insana həyatda neçə dəfə eyni insanla "yola çıxmağa" şans verir? Əsədin hekayəsi, **etdiyimiz seçimlər** və onların həyatımıza təsiri haqqındadır. Tələbələrdən biri Lenanı Əsədə təqdim edəndə, onun 23, Lenanın isə cəmi 18 yaşı var idi. "O, mənim tipimdə bir adam idi", deyə Əsəd qeyd edir. Ondan "mənim tipim" sözünün mənasını soruşanda, Əsəd izah etdi ki, bu bir çox amillərlə - xarici görünüş, ətir, daxili aləm, fiziki bədən quruluşu, ayaqlar...və s. ilə bağlı olan məsələdir. Əsəd hesab edir ki, cazibədarlıq son dərəcə qarşılıqlı anlaşma səviyyəsində baş verir.

23 yaşında olanda, Əsədin yaxın münasibətlər və "uyğun" qızlarla bağlı çox ciddi baxışları var idi. Onun mentaliteti, yaşadığı cəmiyyətdə formalaşmış bəlli stereotiplərə söykənir: "yaxşı qız şalvar geyinməz", kimsə qıza toxunubsa, deməli o, "təmiz qız" deyil və s. Bu mentalitet onu sevdiyi qızla bağlı "yoxlama aparmağa" məcbur etdi. O, öz tələbəsinə Lena ilə bağlı sual verdi və oğlan etiraf etdi ki, o, Lena ilə öpüşüb. Vəssalam, təkcə bu fakt, Lenanın ona uyğun qız olmadığına inanması üçün yetərli idi.

Bir gün Lena ona zəng edərək Kanadaya immiqrasiya etdiyini, Əsədin onun həyatında ilk kişi olmaq istədiyini söylədi. Onlar görüşərək sevişdilər və çox möhtəşəm, unudulmaz anlar yaşadılar... ***Və Lena heç yana getmədi.*** Onunla yaxınlıq edəndən sonra, Əsəd baş verənlərə görə öz üzərində məsuliyyət hiss etdi və bilərəkdən Lenaya digər insanla görüşmək, ona ərə getmək üçün azadlıq və sərbəstlik verməyə başladı. Müəyyən bir vaxtdan sonra, Lena Əsədə yaraşıqlı bir oğlanla görüşdüyünü və artıq onunla görüşə bilməyəcəyini söylədi. Lena bu şəxsin əcnəbi olduğunu dedi. Bunu eşidən Əsəd "dəli oldu". Düzdür, Lena ilə öpüşmək-filan qurtarsa da, amma Lenanın xariciyə ərə getməsini heç cür qəbul edə bilməzdi! O, çox

kobud formada Lena ilə münasibətə son qoydu. ***Və Lena əcnəbiyə ərə getmədi…***

1 ildən sonra, Əsəd Lenanı küçədə gördü. O, artıq püxtələşmiş gənc qadın idi. 2 il tam xoşbəxt və ehtiraslı sevgi dövrü başladı. Lena artıq yataqda da tam fərqli və çox sərbəst idi. O, həmin vaxta öz həyatında artıq 2 ayrı kişi ilə yaşamışdı və Əsəd artıq özünü günahkar və ya məsuliyyətli hiss etmirdi. Beləcə, onların birgə xoşbəxt günləri davam edirdi... Bir gün Lena Əsəddən soruşdu: "Mənimlə evlənərsən?". "YOX" – deyə, Əsədin qətiyyətlə cavab verdi. "Əgər Lenan mənə bu sualı 2 ildən çox davam edən müddətdə soruşsaydı, mən ola bilsin ki, "hə" deyərdim. Amma həmin məqamda, mənim düşüncə tərzim artıq dəyişmişdi və fikirlərim tamam başqa yerdə idi", deyə Əsəd etiraf etdi.

Növbəti dəfə Lena Əsədlə görüşəndə, ona ərə getməyə hazırlaşdığını söylədi. Əsəd onunla sonuncu dəfə sevişmək istədi. Əsəd Lenanı qucaqlayanda, o, dedi: "Əgər bu baş verərsə, mən ona deyəcəyəm". Bunu eşidən Əsədin başına sanki bir vedrə soyuq su tökdülər. *Lena bununla Əsədə bir daha şans verdi ki, Əsəd onu "yola gətirsin". Ona həmin oğlana ərə getməməyini, əvəzində isə ona ərə getməsini dilinə gətirsin. Amma Əsəd bunu demədi, çünki bu addımı atmağa hazır deyildi...*

7 il keçdi... Bir gün onlar Avropa şəhərlərinin birinin hava limanında təsadüfən üzləşdilər. Lena Əsədə zəng vurdu. Onlar müəyyən müddət görüşdülər və o, Lenaya öz ərinin yanına qayıtmasını dedi. "Lenanın uşağı var idi. Bu da mənim üçün yeni problem idi... Və iş-işdən keçənə qədər, Lenanın öz ərinin yanına qayıtması, ən düzgün qərar idi".

Bir qədər sonra, Əsəd eşitdi ki, Lenanın indiki ərindən ikinci uşağı olub. Həmin vaxt Əsədin başqa qadınla ciddi münasibəti var idi və Lenanın bunu bilirdi.

"İstəyirsən Lena yenə həyatına qayıtsın?" sualına Əsəd belə cavab verdi: "Yox, mən onu qəbul etmərəm". Amma sonra bunu da əlavə etdi: "Ümumiyyətlə, mən gərək ondan "qırılım". Əsədin öz sevgi hekayəsi ilə bağlı öz baxışları var. Allah onları bir neçə dəfə görüşdürüb və Əsədə seçim etmək şansını verib. Amma, hər dəfə müxtəlif bəhanələrlə, bilavasitə cəmiyyət tərəfindən yox, cəmiyyətin onun düşüncəsində formalaşdırdığı mentalitetin diktə edilən səbəblərdən **Əsəd Lenanı seçmədi.**

Əsəd hesab edir ki, dünyadan köçəndən sonra, ola bilsin ki, **bu dünyada bir-birlərini tapan, bu qədər yaxın olan, lakin, çox əfsuslar ki, bir yerdə ola bilməyən insanların ruhları kimi, o dünyada bir-birlərinə qovuşsunlar...**

***

ASAD

How many chances to cross the paths with the same person can Universe give you in one life? Asad's story is about the Choices we make and how they impact our lives.

Lena was introduced to Asad by one of his students when he was 23 years old and she was only 18. 'She was my type', he says. When asked what 'one's type' means, he explains that it's about lots of factors together: appearance, smell, inner world, physical complexion, legs. He believes attraction occurs on a deep mutual level.

At the age of 23, Asad had very strict views about relationships and the 'appropriate' girls. His mentality was shaped by the society which believed that good girls do not wear trousers, that if anyone touches a girl's skin, she stops being 'appropriate'. This same mentality prompted him to 'check on the girl'. He asked his student about her and the guy said that they have kissed. This was enough for him to believe that she was not a right girl for him.

One day she called him and said that she was immigrating to Canada and that she wanted him to be her first man. They had sex and it was a wonderful, incredible feeling. She hasn't left. After getting intimate with her, he felt responsibility for what had happened and intentionally started to give her space and freedom to meet and marry someone else. After some time, she told him that she met a nice guy and cannot date Asad anymore. She mentioned that the guy was a foreigner, and Asad went mad. He was over the 'kissing stuff' but her dating a foreigner was something he could not accept. In a very rude way he ended their relationship. She never married the foreigner.

He saw her in the street in a 1-years' time. She was a mature young woman. 2 years of complete happiness and passionate love started. She was very different in bed, very liberated. She has had 2 other men in her life by then, so he no longer felt a guilt or responsibility. They had wonderful time together until one day she asked if he was going to marry her. His answer was a very clear 'NO' "If she would have asked me this after 2 more years, I would likely say 'yes', but at that point my mindset was not there', Asad admits.

Next time when she came to tell him she was getting married. He wanted to make love to her one last time. When he grabbed, her she told him something that had an impact of a cold shower on him. 'If this happens, I will tell him'. She was giving him another choice to talk her against marrying this guy and to propose to her. But he was not ready to make this step.

She called him next time after 7 years (they met once by chance at the airport of one of the European cities). They dated for some time, then he convinced her to return to her husband. "She has a kid; this was a new obstacle for me… The right thing was for her to go back to her husband before it was too late".

Later he heard that she got another child with her husband. He got into a serious relationship with another woman, which she became aware of.

Will he want her to appear in his life again? 'No, I would not accept her', he says. But then adds that he thinks that he may end up with her. His own summary of his story is that Life was bringing them together so many times and gave him a chance to make a choice. **He never chose her** and every time for different reasons, not directly dictated by the society, but dictated by his mindset shaped by the society.

He thinks that **they may be the souls of people who were close in another life** and were supposed to find each other in this life. But they failed…

***

What we people call love is just a chemical reaction happening in our body that compels animals to breed. Yes, we are in fact animals, we are just social animals, so we try to put morals such as respect, social bonding, emotions etc. behind and all over this instinct. Our ancestors have done it over centuries and we are going to do it as long as we rise above as species and focus on science. With LOVE*

***

Salam. Mən öz qohumu sevirəm. Həmdə uşaq vaxtımdan. Uşaq vaxtı deyəndə gülməli çıxır ama uşaq vaxtı istəyirdim, yeniyetme vaxt düşündüm ayıbdı olmaz, gənc yaşıma çatanda (18) bir insanla danışdım ciddi anlamda unudaram və qısamüddətli oldu, bitdi. İndi isə 4 ildi həsrətindəyəm. Bütün uşaqlıq xatirələrimdə, fotolarımda yalnız o var. Düzdü 1 ildi artıq bilir sevdiyimi, özüdə istəyir mənimlə gələcək olsun ama bir neçə il şərt qoyur ondan sonra ciddiləşərik deyə. Bildiyiniz bir neçə ili təhsil filan adı ilə rahat yaşasın deyə neçə il sonraya saxlayır. Bir şeyi düşünmürki mən onu ölümünə sevirəm və bu neçə il ərzində mən onla danışmadan necə qala bilərəm. Mənim heç bir oğlana könlüm belə düşmür, digər oğlanlar mənə yox dərəcəsində di. Özümü dərk etdiyimdən bugünə kimi "O" yalnız "O".... Başqa birini düşünmürəm düşünmə-yəcəmdə. Təşəkkürlər oxuduğunuz üçün! =

***

Dəniz...

Dəniz dedikdə ağlınıza ilk nə gəlir? Maviliyi, gözəlliyi, qoxusu ilə insanları özünə cəlb edən cahan. Məni isə "dəniz" kəlməsi düşündürür, kədərlən-dirir, ağladır. Həyatımı dəyişən, qəlbimdə silinməz acı izlər buraxan sevgi hekayəm 10 il bundan əvvəl başladı.

Oktyabr ayının on beşi idi. Ailəmlə birlikdə yeni evimizə köçmüşdük. İki gün sonra isə, evin yaxınlığındakı məktəbə başladım.

Ilk dəfə onu məktəbin girişində gördüm. Qəribə gəlsə də, içimdən bir səs, onun həyatımı dəyişəcəyini söylədi. Belə də oldu...

Bir neçə gün sonra onun bizim evin qarşısındakı evdə yaşadığını bildim. Eyni məhlədə yaşayırdıq, eyni məktəbdə oxuyurduq. Amma onunla göz-gözə gəlmək-dən çəkinirdim. O vaxtlar bilmirdim ona olan hissimin adı nədir. Sadəcə, onu görməyəndə darıxırdım. Beləcə iki il keçdi. Artıq bunun sevgi olduğunu anlamışdım.

Məktəbi bitirməyimizə sayılı günlər qalırdı. Onu tez-tez görə bilmək şansım azalmışdı. Təsəllini onunla qonşu olmağımızda tapırdım. Qəbul imtahanları bitdikdən sonra, bir neçə günlük istirahətə getdim. Qayıtdığımda onun ali təhsil almaq üçün xaricə getdiyini öyrəndim. Bu xəbər mənim üçün gözlənilməz oldu. Bir il müddətində ondan heç bir xəbər almadım. Artıq mənim üçün həqiqətən

əl çatmaz olduğunu düşünürdüm.
İyul ayı idi. Tətilə evinə qayıtdığını eşitdim. Onu yenidən görmək üçün səbirsizlənirdim. Həmin gecə qəribə yuxu gördüm. Yuxuda onların həyətində dayanmışdım. Qarşımda qara tabut var idi. Tabutda kimin olduğunu anlamağa çalışırdım. Oyandıqımda bunun sadəcə bir yuxu olduğunu anlasamda, artıq içimdə sıxıntı yaranmışdı. Bir səhər telefon zənginə oyandım. Ən yaxın rəfiqəm titrək səslə mənə onun dənizdə boğularaq öldüyünü dedi. Dənizin məndən sevdiyim insanı, onunla birlikdə isə xoşbəxtliyimi, sevincimi aldığına inanmırdım. Cəsarətimi toplayıb evinə getdim. Yalan deyildi. Anası ağlayaraq onun gecədən dənizdə axtarıldığını dedi. Əslində, onun qayıtmayacağını dərk edirdim. On yeddi saat sürən axtarışlardan sonra, tabutda evinə yalnız soyuq cəsədi gətirildi. Həmin an bir neçə gün əvvəl gördüyüm yuxu film lenti kimi gözümün önündən keçdi. O gün sahilə çırpılan şıltaq dalğalar onunla bağlı bütün xəyallarımı dərin sükuta qərq etdi.

***

Моя история начинается именно с этой "любви с первого взгляда". Только вот для меня взгляд был действительно первым, ведь она была первой представительницей женского пола, которую я увидел после моей матери и сестры. Наши матери были близкими подругами, наши сестры были еще ближе, так что мы были связаны еще до нашего рождения. Родились мы подряд, разницей всего-то в месяц. Не помню тот бессознательный период моего детства, но уверен, что я полюбил ее еще тогда. Ко всему вдобавок мы еще были соседями, так что счастью моему не было предела. Помнится, я никогда не мог дозвониться до этого вечноспящего существа. Поэтому я бежал во двор и кричал, что есть мочи. Ее родители смущались и им приходи-лось ее будить, чтоб я соизволил заткнуться. И так было каждый божий день. Я хотел, чтоб она общалась со мной постоянно. В 7 лет я гордо заявил, что мы поженимся. В 9 я подарил ей колечко. Да вот только она засмеялась и сказала как же ей повезло с таким братиком. Я проплакал ночь. Хотя.. Что я вру. 4 ночи. Но, собрав волю в кулак, продолжил дружить. Затянулось это на долгие годы. Свою первую любовь я пронес через 20 лет своей жизни. Но я был рад разделять с ней все ее горести и успехи. Я так ее любил, что позволил быть счастливой с другим. Весной следующего года у нее состоится свадьба, и я бесконечно рад. Любовь не обязательно подразумевает "обладать", ведь так? Я просто хочу счастья для нее и мне не важно, что оно не со мной.

***

И наступил такой период в моей жизни, когда не хотелось ни читать, ни писать, ни есть. Я хотела тихо наблюдать за миром, иногда остановить случайного прохожего и рассказать ему о себе, прикасаться к нему и понять, что он - такое же живое усталое мясо, как и мы с тобой. Я была частью большого прекрасного мира, и я ничего не хотела делать. Умом я понимала, что ты и все, что с тобой связано, унесено ветрами, смыто дождем, покрыто снегом, и наконец, перегрето и уничтожено временем. Но душа через преграды пространства и времени тянулась к тебе, но не к тебе живому, здоровому, не к тебе - улыбающемуся привлекательному любителю читать серьезные книги, без капли сентимен-тальности и чувства. Душа тянулась к тебе - безнадежно глупому, испорченному выдуманной смелостью, иллюзорной самоуверенностью. И, конечно, к тебе - поклоннику честных и сильных натур, последователю Сартра и Ницше. К тебе - на вид сильному, без шрамов и синяков, к тебе, мальчик, пьяному от пережитого, бессонному, от того и злому, грустному.
В этот период наступило безразличие к миру, ко всем членам, классам общества, цвета покинули мою оптику, мое видение мира; все стало черно-белым. И на этом фоне “резкости” и

"неясности" ты застыл, как застывает один единственный миг на фотографии. Ты стоял во власти черно-белых тонов печали. Все, что окружало тебя, все - во что ты был одет, все детали твоего застывшего силуэта указы-вали на жуткую и безграничную печаль.
Пойми, мысли увлеклись за одним единственным из миллиардов убитых бессмысленным смехом, словами, взглядом мгновений, где ты не силен, не горд и не улыбаешься.

***

Tam 1 il əvvəl bu sualı mənə versəydilər, deyərdim ki, sevgi xoşbəxt olmaq, bir yerdə demək gülmək, biryerdə çoxlu şəkillər çəkdirib paylaşmaq, evlənmək uşaq dünyaya gətirməkdir. Amma bu gün 24 yaşımda həyatda yaşadıqlarımdan başa düşdüm ki, sevgi 1 insanı həyata gətirmək, canlandırmaqdır. Nə deməkdir bu?
Biz onunla sosial şəbəkədə tanış olmuşduq. Çox keçmədi yaxın dost olduq.Bir az da keçdi artıq sevgili olduq, bir balaca da keçdi hərili, nişanlı və evli olduq. Biz valideyn olduq. Oğlumuz dünyaya gəldi. Bu ana qədər başa düşürdüm ki uşaq elə sevgimizin özüdür . Budur bəlkə də sevgi. Amma bizim övladımız çox yaşamadı 1 ay bizimlə oldu. Qəfil xəstəlikdən bizi tərk etdi. Yenə də biz 2 olduq. Sevgi gizlində deyil bir yerdə və ancaq onunla ağlamaqdır onunla sakitləşməkdir. Onun səni, sənin onu həyata qaytarmağa çalışmağındır. Sırf sevgiyə görə ən ağır dərdi belə bərabər içdən yaşayıb və biryerdə ondan çıxmaqdır. Bizdə alındı. Biz bacardıq. Çünki biz, BİZ olmaq üçün, bir birimizi yenidən həyata gətirmək üçün çalışdıq.
SEVGİ 3 cümlədən ibarət, 3 ömürə belə yetməyəcək güclü QÜVVƏDİR...

***

Menimde kicik bir hekayem var.
Biz 8 ildir qonwuyuq. O ailesi ile birlikde ucqar bir kendden bizim bloka kocduler, biz ise yerli Bakiliyiq. Aramizda ancaq salam ve sagol var idi. 4il bundan evvel bir sebebden Eziz mene yazmali oldu ve biz bawladiq daniwmaga. Onun xarakteri meni ona gun gunden baglayirdi (men onu hardasa oz atamada oxwadiram) ve men hiss eledimki men artiq awiq olmuwam. Bilmirem belkede ondada nese hissler var amma o bunu helede dile getirmeyib. Aramizda o qeder ferqler varki, baxiwlarda duwuncelerde. Mence o qorxurki bu elaqeni bawlayar amma sonra menle bacara bilmez. Men weherde boyumuw son derece muasirem (geyimde, duwunce-lerde) amma o weher adamlarinin normal baxdigi weyler, onun xarakterine uygun weyler deyil. Belkede o bundan ehtiyyat eleyib hislerini dile getirmir. Mene qonwu deyerek muraciet eleyir, bu qeder yaxinliga baxmayaraq. Meselcun mende neyise beyenmedise bunu dile getirir. Men bunu beyenmirem amma qonwu ozun bilersenaaa... sen mene fikir verme. Men ise ele biriyemki sevdiyim menden neyise teleb etsin, men ozumde tam deyiwiklik ederem. Amma o neyisede teleb etmir menden. Menimse sevgim ona gun gunden boyuyur buyuyur bir iwgence halina kecir. Mende ona oz sevgimi etiraf ede bilmirem, menim duwunceme gore ilk addimi oglan atmalidi. Hemde "yox" cavabi almaqdan qorxuram. Biz sadece her gun daniwiriq boluwuruk bu qeder. Onun artiq 26 yawi var ailesi onu evlendirmek isteyir. O gun bir gun gelecek ve biz yene qonwu olacayiq. Cox ezab verici bir hissdi. Buda menim hekayem. Sizce o meni sevir???

***

Sevgi hekayəm var, amma yaşanmamış bir hekayədir. Heç tanımadığın, heç görmədiyin, adını belə bilmədiyin adama necə aşiq ola bilər ki insan? Eyni dünyada, bəlkə də eyni şəhərdə yaşayırıq. Keçdiyim hər küçədən , yemək yediyim restoranda bəlkə o da olub, lakin fərqli zamanlarda... Bəlkə saniyə fərqi ilə rastlaşmağımız mümkünsüz olub, lakin doğru zaman hər zaman gəlir və gələcək, amma nə vaxt? Gözlədikcə sevgiyə inamın itər bəzən, sadəcə insanların uydurduğu mücərrəd

hiss olduğunu düşünərsən. Yaşamadığın hissi yazanmarsan deyirlər, amma sevginin özünü yazmaq imkansız deyilmi? Yaşamadan yazıram bəlkə də bunları, amma sevgi yaşadığın qədərdir deyirlər. Onu təsvir edənmərsən sadəcə yaşayıb hiss edərsən, insanları nə qədər xoşbəxt edib, nə qədər bədbəxt edə biləcəyini öyrənərsən. İnsan sevgisini göstərmək istər, amma heç vaxt onun üçün bir şeylər etməyi düşünməməlidir. Şeir yazmaq, mahnı bəstələmək, onun şəklini çəkmək, hədiyyə almağın özü də sevgini göstərməz, sadəcə ona olan diqqətini göstərir. Heç bilmədiyim sevgi hekayəmi heç tanımadığım adama yazdım sadəcə. Hekayə deyil bəlkə də yazdığım, amma sevginin hekayəsi olmaz. Burda yazanlar heç olmasa bir dəfə yaşadıqları hekayənin sevdiyi insan tərəfindən onların dilindən oxunmasın istəyərək yazdı bəlkə də, və ya bitməsin, unudulmasın deyə. Sevgi yaşansa da, yaşanmasa da unudulmur onsuz. Nə zaman başlıyıb, nə vaxt bitəcəyini bilmədiyin bir paradoxsdur sadəcə.

***

Bu gün mən artıq gənc deyiləm,lakin sevgini çox erkən yaşda kəşf etdim.Hədsiz sevdiyimə baxmayaraq,tərk edilən tərəf oldum.
İlk sevgi belə bitdi....
Daha sonra, qarşıma ondan yaxşı sandığım insan çıxdı,yenə sevgimi ilk dəfə olduğu kimi alovlandırdım, lakin yenə tərk edildim.
Növbəti dəfə sevəndə artıq yaşim 30 idi.İllərimi onu gözləməyə sərf etdim,ən gözəl hisslər bagışladım,amma bir bəhanə ilə tərk edildim....
Bu gün mənim heç vaxt hiss etmədiyim ,yaşamadığım bir sonsuz sevgim var. O qədər bənzərsiz və bütün daxilimlə sevirəm ki,nəfəsi belə onun varlığı ilə alıram.Ağlımı başımdan alacaq,ayaqlarımı yerdən kəsəcək,gözlərinin içinə baxaraq MƏN olacaq bir sevgi yaşayıram.Məni o yaşadır.Mən onu hər halı ilə sevdim.Dəli sevgisi ilə,ehtirası ilə,yalanı, xəyanəti, yenə geri dönməsi və sadəcə varlığına görə sevdim.
O məndən yaşca çox kiçikdir... Imkansız ,gələcəksiz sevgi olsa da,yanımda olduğu gədər mən var oluram, tamamlanıram.İnsan yalnız bütöv olanda xoşbəxtdir.Bir an olsun,bir gün olsun,lakin xoşbəxtliyi dadsın hər kəs.
O mənim yaşama səbəbimdir.Mən onu O var olsun deyə qoruyuram,üzü gülsün deyə cabalayıram,canımı sipər edəcək gədər gayğısını çəkirəm,kefi olmayanda yanında olmadığım an, düşüncələrimdə sığallayır və onunla üzülürəm,yuxusunun keşiyini çəkirəm, təmənnasız, umacaqsız sevirəm. Gözlərinin içində bəzən boğuluram. Mən onun xəyanəti ilə üzləşəndə,geri döndüyündə qaldığım yerdə gözləyirdim.Səssiz,nəfəssiz,onun izlərini gəzirdim.Onu ayağa qaldıran,yaralarını saran və sevən yenə mən oldum... Əsla qürursuz deyiləm,sadəcə sevgimin içində boğuldum,sovruldum.
Ömrümün ən gözəl nağılı deyə bilərəm. Mən həyata sevilmək üçün deyil, sevmək üçün gəldiyimi anlamışam. Və bu sevgini nə qədər nəfəsim yetərsə yaşadacam. Sevgilərlə....

***

Bütün İtirdiklərimiz Xatirinə
Təxminən bir il öncə başlamışdı hərşey. Başlayanda hərşey əvəz olunmaz bir şəkildə yaşanırdı. Yeri ağlamaqla dolmur, kişilər ağlamaz həm daha ağlamaq da olmur. Məsələn zamanın necə keçdiyini anlamazdım, indi şəkillərə baxıb necə xoşbəxt günlər idi deyə xatırlayır insan. Yuxusuz gecələr, səhər 6 da, sırf sabahın xeyir sözünü telefonda eşitmək üçün oyanmalar var idi ilk başta. Saçlarının ətri üstümə keçənə qədər qucaqlamaq istəyi, parkda butulka suyu götürüb bir-birimizin üstünə atmaq. Başını çiynimə qoyub yatardı, çiynimi tərpədə nilməzdim, Bir konsertdə uşaqlıqdan bəri ikimizində dinlədiyi mahnıları qulağına oxumaq. Hətta, xatirəsi əziz

qalsın deyə ona mahnı yazmaz. Sonra araya girən yalanlar güvən itkisi, məsafələr uzaqlar, insanı insandan soyudan kilometrlər. Nə bilim, indi boynumda bir yük kimi daşıdığım bir gitar boyunbağı qalıb sadəcə, bunun sayəsində insanlara qarşı olan güvənimi itirib hərkəsi özümdən uzaqda tuturam. Hə birdə dəftərimin üstündəki adı qalıb xatirə, birdə qızımız olsa adı Günəş olar deyə çəkdiyi günəş şəkli. O gedəndən səhərlər açılmır. Daha yuxularıma da girmir, təkcə getdiyimiz o yollarda tək getmək təsir edir insana, bəlkədə dinlədiyim mahnılara görədi. Ayrıldıqdan 1 ay sonra saçlarını kəsmişdi bundan gec xəbərim oldu və bunu etməkdə məni günahlandırdı. Məndə o vaxtdan saçımı kəsmirəm, bir ildir ki, uzadıram. Qısa olanda belə hörməyə cəhd göstərirdi saçımı. İndi isə üzümü örtür amma hörən yoxdu. Bir də bəzən yolda görürəm yanında tanımadığım hansısa dostu ilə əsəbləşirəm, ayağım əsir hətta, öldürmək hissi də keçir içimdən boyunbağını qırıb üzünə atmaq hissi yaranır içimdə. Üzündə əvvləki nur gülüş də qalmayıb mənim kimi bəlkə oda mənim kimi güzgüyə baxa bilmir daha. Amma çox sevdiyim bir dostuma söz vermişəm ki, pis olmayacam ona görə. Bəlkə çıxıb gəlsə hərşey düzələr deyə düşünmürəm heç, insan insandı ona görə canıvı da qoysan inan ki bəs eləmir. Tərk edənləri bağışladıq deyə ruhumuz bizdən küsüb. Hərşey yaxşı olacaq. Ən azından mənim üçün. Bütün itirdiklərimiz xatirinə.

***

M.Fuzuli sevdasi,eshqi ve duhasi bizi mekteb illerinde, bize sevginin gozelliyini oyretdi,onda bele fikrimiz yox idi,sadece Leyli ve Mecnun obrazlarinda ruhumuzu birleshdirdi,bizden xebersiz... Belece mektebi qurtarib, tam ferqli insanlar kimi heremiz oz ish ve gucumuzde yashadig bu heyati... Atilan addimlar 9 ilden sonra cavablandirildi,nishandan sonra "Seni senden ve hamidan xebersiz sevmishem"cumlesi ile Onun yaddashina hekk olundu.Sevirsense xoshbext etmelisen, Sevgimiz alidir deyib helede bu cetin yolda birbirine destek olurug. Sevgimizin bir omur deyil,ebedi olmasi dileyi ile...

***

Mən əsəgərlikdə olanda mənə orada deyərdilər leyla səni sevir sən niyə onu incidirsən. Heş yaddaşımdam silinməyən keçmiş tələbəlik illərimi xatırlatdı o deyilən söz. Bu gün mən öz sevgimlə eyni yerdə. Uzaqdan uzağa duyğulstımla yaşayıram. mənim əbədi sevgim Leylam.əbəfi dünyam olur.

ARTIM

ARTIM layihəsinin başlıca məqsədi, ölkənin gənc nəslinin istedadlı nümayəndələrini incəsənət sahəsində karyera qurmağa təşviq etmək, habelə Azərbaycanın gənc rəssamlarına peşəkar səhnədə öz əsərlərini nümayiş etdirmək üçün müvafiq şərait yaratmaqdır. ARTIM layihəsinin İçərişəhərdə peşəkar sərgi məkanı var. Bu məkan, eksperimentlərin aparılmasına və əsərlərin peşəkar səviyyədə nümayişinə imkan verən
platforma qismində çıxış edir.

Ünvan: ARTIM Layihə Məkanı
İçərişəhər, Böyük Qala küç., 30, 001A
İş rejimi: Cümə axşamı – şənbə, 17:00 – 19:00
Giriş sərbəstdir

–

ARTIM is directed at young Azerbaijani artists with an intention to support and encourage emergent talent to grow. The programme has a designated exhibition space in Old City that was conceived as a platform for experimenting and professionally showcasing art. Artworks resulting from the programme are exhibited at the ARTIM Project Space, Baku.

Address: ARTIM Project Space
Old City (Icherisheher) Boyuk Gala Street 30, 001A
Working hours: Thursday – Saturday 5 – 7 pm
Admission is free

–

ƏLAVƏ MƏLUMAT / ADDITIONAL INFO:
www.yarat.az/az/visit/artim
#artimprojectspace
#yaratresidency

YARAT.az /

YOU
WERE HERE

ARTIM